# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ TƏCHİZAT ZƏNCİRİNDƏ RƏQABƏT PRAKTİKALARI

DOİ: 10.71447/2413-7235-2026-1-64

**Anar V. Bayramov**
*Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı*
*E-mail: a.v.bayramov@gmail.com*
*ORCID: 0009-0004-2167-4204*

**Xülasə**

Bu məqalə kənd təsərrüfatı və ərzaq məhsulları təchizat zəncirində mövcud olan haqsız ticarət praktikalarının (HTP) mahiyyətini, onların iqtisadi təsirlərini və fermerlərin üzləşdiyi çətinlikləri araşdırır. Məqalədə, həmçinin bu problemin həlli üçün beynəlxalq, xüsusilə də Avropa İttifaqı (Aİ) təcrübələri təhlil edilərək Azərbaycan üçün müvafiq siyasət tövsiyələri verilir.

Məqalədə müqayisəli təhlil, normativ sənədlərin və beynəlxalq təcrübənin analizi ilə yanaşı, Azərbaycanda pərakəndə ticarət strukturunun transformasiyasını və alıcı konsentrasiyasını qiymətləndirmək üçün rəsmi statistika məlumatlarından və ərzaq dağıtımı (FMCG) sektorunda fəaliyyət göstərən 6 şirkət nümayəndəsi ilə aparılmış ekspert müsahibələrindən istifadə olunmuşdur.

Tədqiqat HTP-lərin fermerlərin maliyyə sabitliyinə mənfi təsirini və ölkənin ərzaq təhlükəsizliyinə yaratdığı riskləri vurğulayır. Nəticələr HTP-lərlə mübarizə üçün hüquqi mexanizmlərin təkmilləşdirilməsi ilə yanaşı, icra mexanizmlərinin gücləndirilməsinin, fermer təşkilatlarının dəstəklənməsinin və maarifləndirmə tədbirlərinin zəruriliyini göstərir.

Araşdırma göstərir ki, HTP-lərlə mübarizə yalnız qanunvericilik təşəbbüsləri ilə deyil, həm də təşkilati-idarəetmə və maarifləndirmə mexanizmləri ilə gücləndirilməlidir. Fermerlərin hüquqlarının qorunması və təchizat zəncirində ədalətli münasibətlərin qurulması üçün müstəqil nəzarət orqanlarının yaradılması vacibdir.

Tədqiqat Azərbaycanda kənd təsərrüfatı təchizat zəncirindəki HTP-ləri beynəlxalq təcrübələr, xüsusilə Aİ Direktivləri fonunda sistemli şəkildə təhlil edir. Məqalə, mövcud "Rəqabət Məcəlləsi" çərçivəsində HTP-lərin spesifik formalarına dair təklif olunan dəyişikliklərə dair təklifləri təqdim edərək bu sahədə institusional və hüquqi boşluqları vurğulayır.

***Açar sözlər:*** *Haqsız ticarət praktikaları, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, təchizat zənciri, fermer hüquqları, müqavilələli istehsal.*

# COMPETITION PRACTICES IN THE SUPPLY CHAIN OF AGRICULTURAL PRODUCTS

**Anar V. Bayramov**
*PhD Student, Agricultural Research Center*
*E-mail: a.v.bayramov@gmail.com*
*ORCID: 0009-0004-2167-4204*

**Abstract**

This article explores the nature of unfair trading practices (UTPs) in the agricultural and food supply chain, their economic impacts, and the challenges faced by farmers. It also analyzes international experiences—particularly those of the European Union (EU)—to propose relevant policy recommendations for Azerbaijan.
In the article, in addition to comparative analysis and the analysis of regulatory documents and international experience, official statistical data as well as expert interviews conducted with representatives of six companies operating in the food distribution (FMCG) sector were used to assess the transformation of the retail trade structure and buyer concentration in Azerbaijan.
The research highlights the negative impact of UTPs on farmers' financial stability and the risks they pose to national food security. The findings underscore the need for not only legal reforms but also strengthened enforcement mechanisms, support for farmer organizations, and awareness-raising initiatives.
The study shows that combating UTPs requires more than legislative initiatives; it must be reinforced through effective implementation and educational mechanisms. Establishing independent oversight bodies is essential to protect farmers' rights and ensure fair relations within the supply chain.
The research provides a systematic analysis of UTPs in Azerbaijan's agricultural supply chain within the context of international practices, especially EU Directives. By proposing amendments to the existing "Competition Code," the article identifies institutional and legal gaps in this domain.
***Keywords***: *Unfair trading practices, agriculture, food security, supply chain, farmers' rights, contract farming.*

# ПРАКТИКИ КОНКУРЕНЦИИ В ЦЕПОЧКЕ ПОСТАВОК СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ

**Анар В. Байрамов**
*Докторант Центр Аграрных Исследований*
*З-почта: a.v.bayramov@gmail.com*
*ORCID iD: 0009-0004-2167-4204*

## Резюме

В данной статье рассматривается сущность несправедливых торговых практик (НТП) в цепочке поставок сельскохозяйственной и продовольственной продукции, их экономическое воздействие и трудности, с которыми сталкиваются фермеры. Также анализируется международный опыт, особенно практика Европейского Союза (ЕС), с целью выработки соответствующих политических рекомендаций для Азербайджана.
В статье, наряду с сравнительным анализом, анализом нормативных документов и международного опыта, для оценки трансформации структуры розничной торговли и концентрации покупателей в Азербайджане использованы данные официальной статистики, а также результаты экспертных интервью, проведённых с представителями 6 компаний, действующих в секторе дистрибуции продовольственных товаров (FMCG).
Исследование подчеркивает негативное влияние НТП на финансовую устойчивость фермеров и риски, которые они создают для продовольственной безопасности страны. Результаты показывают необходимость не только законодательных реформ, но и усиления механизмов исполнения, поддержки фермерских организаций и проведения просветительских мероприятий.
Анализ показывает, что борьба с НТП должна осуществляться не только через законодательные инициативы, но и посредством эффективных механизмов реализации и информирования. Для защиты прав фермеров и обеспечения справедливых отношений в цепочке поставок необходимо создание независимых контрольных органов.
Исследование представляет собой системный анализ НТП в цепочке поставок сельского хозяйства Азербайджана на фоне международного опыта, особенно директив ЕС. Статья предлагает изменения в рамках действующего “Конкурентный кодекс”, подчеркивая институциональные и правовые пробелы в данной сфере.
***Ключевые слова**: Несправедливые торговые практики, сельское хозяйство, продовольственная безопасность, цепочка поставок, права фермеров, контрактное производство.*

## GİRİŞ

Kənd təsərrüfatı və ərzaq məhsullarının təchizat zənciri, qlobal və yerli iqtisadiyyat üçün həyati əhəmiyyət daşıyan kompleks və çoxpilləli bir sistemdir. Bu sistemdə iştirak edən subyektlər – fermerlər, topdansatışçılar, emal müəssisələri və pərakəndə satış şəbəkələri – fərqli güc imkanlarına malik olduqları üçün kommersiya münasibətləri bərabər şərtlərlə qurulmur. Güclü alıcıların, xüsusilə iri pərakəndəçilərin zəif təchizatçılar üzərində dominant mövqeyə sahib olması nəticəsində qeyri-bərabər şərtlər və haqsız ticarət praktikaları (HTP) meydana çıxır (Swinnen, 2017). HTP-lər təsərrüfat subyektlərinin normal fəaliyyət göstərməsinə mane olur.

Haqsız ticarət praktikaları – bir ticarət tərəfdaşının digərinə qarşı birtərəfli və ədalətsiz davranışlar tətbiq etməsi – kənd təsərrüfatı sektorunda xüsusilə geniş yayılmış və təhlükəli bir problemdir. Bu praktikalar gecikmiş ödənişlərdən tutmuş sifarişlərin son anda ləğvinə, müqavilə şərtlərinin birtərəfli dəyişdirilməsindən kommersiya sirrinin pozulmasına qədər müxtəlif formalarda təzahür edir (European Commission, 2019). HTP-lər yalnız iqtisadi bərabərsizliyi dərinləşdirmir, eyni zamanda fermerlərin maliyyə sabitliyini, investisiya motivasiyasını və bazar iştirakçılığı imkanlarını məhdudlaşdırır. Bu isə, son nəticədə ölkənin ərzaq təhlükəsizliyi və dayanıqlı kənd təsərrüfatı hədəflərinə ciddi şəkildə təsir edir (FAO, 2024).

Bu problemin aktuallığı ondan ibarətdir ki, HTP-lər fermerlərin maliyyə dayanıqlığını zəiflədir, istehsal motivasiyasını azaldır və ərzaq bazarının dayanıqlılığına risk yaradır. Müxtəlif ölkələrin tənzimləmə təcrübələrinə baxıldıqda, xüsusilə Avropa Birliyinin 2019/633 saylı Direktivinin qəbulundan sonra, kənd təsərrüfatı təchizat zəncirində haqsız ticarət praktikalarına qarşı ciddi normativ çərçivələrin yaradıldığı müşahidə olunur (European Commission, 2019). Buna görə də haqsız ticarət praktikalarının mahiyyətinin araşdırılması və tənzimləmə təcrübələrinin öyrənilməsi aktual elmi-praktiki məsələdir.

Məqalənin məqsədi kənd təsərrüfatı və ərzaq məhsullarının təchizat zəncirində haqsız ticarət praktikalarının mahiyyətini açıqlamaq, onların təsərrüfat subyektlərinin fəaliyyətinə təsirlərini dəyərləndirmək, müxtəlif ölkələrin (xüsusilə Aİ) tənzimləmə təcrübələrini təhlil etmək və Azərbaycan üçün uyğun siyasət tövsiyələri verməkdir. Bu məqsəd çərçivəsində məqalədə əvvəlcə HTP-lərin mahiyyəti və kənd təsərrüfatı dəyər zəncirindəki yeri izah olunur, sonra beynəlxalq tənzimləmə təcrübələri və Azərbaycanın mövcud yanaşması müqayisəli şəkildə təhlil edilir, nəhayət HTP-lərin tənzimlənməsinin təkmilləşdirilməsi üçün institusional və hüquqi təkliflər təqdim olunur.

Məqalədə müqayisəli təhlil, normativ sənədlərin və beynəlxalq təcrübənin analizi, habelə mövcud qanunvericilik layihələrinin qiymətləndirilməsi metodlarından istifadə olunmuşdur.

Məqalədə "haqsız ticarət praktikaları" anlayışı kənd təsərrüfatı və ərzaq təchizat zəncirində alıcı-təchizatçı münasibətlərində meydana çıxan birtərəfli və ədalətsiz kommersiya davranışlarını ifadə edir. "Haqsız rəqabət" isə daha geniş hüquqi kateqoriya olub bazarda rəqiblər arasında yolverilməz davranış formalarını əhatə edir. Bu səbəbdən məqalə boyunca təchizat zəncirinə aid halları ifadə etmək üçün əsas termin kimi "haqsız ticarət praktikaları (HTP)" anlayışından istifadə olunur.

Empirik hissədə Azərbaycanda pərakəndə ticarətin struktur transformasiyasını qiymətləndirmək üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrlərinin məlumatlarından, habelə ərzaq dağıtımı (FMCG) sektorunda fəaliyyət göstərən 6 şirkətin nümayəndələri ilə aparılmış ekspert müsahibələrindən istifadə edilmişdir. Ekspert qiymətləndirmələri müqayisə edilmiş, sintez olunmuş və orta göstəricilər əsasında bazar konsentrasiyası barədə nəticələr çıxarılmışdır.

Məqalə üç əsas hissədən ibarətdir: birinci hissədə haqsız ticarət praktikalarının mahiyyəti, kənd təsərrüfatı dəyər zəncirindəki rolu və təsərrüfat subyektlərinin fəaliyyətinə təsirləri araşdırılır. İkinci hissədə HTP-lərin tənzimləmə təcrübələri müqayisəli şəkildə təhlil olunur. Üçüncü hissədə isə Azərbaycanda HTP-lərin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində siyasət tövsiyələri verilir.

Haqsız ticarət praktikalarının mahiyyəti, kənd təsərrüfatı məhsulları dəyər zəncirində HTP-lər və onların təsərrüfat subyektlərinin fəaliyyətinə təsirləri

**Haqsız ticarət praktikalarının nəzəri izahı**

Haqsız ticarət praktikalarının yaranması və davamlılığı bir neçə nəzəri yanaşma ilə izah oluna bilər. Bazar gücü nəzəriyyəsinə görə, yüksək konsentrasiyaya malik alıcılar qiymət, ödəniş müddəti və digər müqavilə şərtlərinə təsir etmək imkanına malik olur. Kənd təsərrüfatında istehsalçıların çoxsaylı və parçalanmış olması, alıcıların isə daha yüksək təşkilatlanma səviyyəsinə malik olması sövdələşmə gücünün asimmetrik bölgüsünü gücləndirir.

Transaction cost economics yanaşması göstərir ki, kənd təsərrüfatı məhsullarının tez xarab olması, keyfiyyət qeyri-müəyyənliyi və müqavilələrin natamamlığı alıcı-təchizatçı münasibətlərində opportunistik davranış riskini artırır (Williamson,1985). Bu halda daha güclü tərəf risk və xərclərin bir hissəsini zəif tərəfin üzərinə ötürməyə çalışır.

"Principal-agent" problemi və sövdələşmə gücü (bargaining power) yanaşmaları da göstərir ki, informasiya asimmetriyası, alternativ satış kanallarının məhdudluğu və fermerlərin zəif təşkilatlanması təchizatçıların müqavilə münasibətlərində daha zəif mövqedə qalmasına səbəb olur (Eisenhardt, 1989). Beləliklə, HTP-lər yalnız etik və ya hüquqi problem deyil, həm də bazar strukturundan doğan iqtisadi problemdir.

Haqsız Ticarət Praktikaları bazar gücündən sui-istifadədən qaynaqlanan müxtəlif növ praktikaları özündə birləşdirir. Bu anlayış kənd təsərrüfatı təchizat zəncirində, xüsusilə alıcı-təchizatçı münasibətlərində geniş yayılmışdır.

HTP-lərin mahiyyəti ondan ibarətdir ki, onlar kommersiya münasibətlərində ədalət və balans prinsipini pozur, tərəflər arasında razılaşdırılmış şərtlərin birtərəfli dəyişdirilməsinə və ya icrasına gətirib çıxarır. FAO-nun qiymətləndirmələrinə görə, bu praktikalar ən çox zəif sövdələşmə mövqeyində olan fermerlərə təsir edir və nəticədə onların maliyyə dayanıqlığını azaldır, istehsal risklərini artırır və investisiya imkanlarını məhdudlaşdırır (FAO, 2024).

HTP-lərin mövcudluğunun əsas səbəblərindən biri bazar gücünün asimmetrik paylanmasıdır. Yəni, böyük alıcılar – xüsusilə pərakəndə satış şəbəkələri və emalçılar – yüksək konsentrasiyaya malik olduğu halda, kiçik və orta fermerlər çoxsaylı, parçalanmış və zəif təşkilatlanmış olur (European Commission, 2019). Bu güc disbalansı nəticəsində alıcılar öz şərtlərini diktə edə, müqavilə hüququnu birtərəfli şəkildə dəyişdirə və ya təchizatçını haqsız risk və xərclərlə yükləyə bilirlər.

Kənd təsərrüfatı dəyər zəncirində HTP-lərin ən geniş yayılmış formaları bunlardır:

- **Ödənişlərin gecikdirilməsi** (fermerlər üçün əsas maliyyə yükü yaradır);
- **Qiymətlərin birtərəfli endirilməsi və ya dəyişdirilməsi** (mövsüm ortasında və ya məhsul təhvil verildikdən sonra);
- **Əlavə ödəniş və haqların tətbiqi** (logistika və marketinq xərclərinin qeyri-rəsmi şəkildə istehsalçıya ötürülməsi);
- **Məhsulun qəbulunun əsassız gecikdirilməsi və ya imtinası** (məhsulun xarab olması və istehsalçının zərərə düşməsi ilə nəticələnir);
- **Eksklüzivlik və satış məhdudiyyətləri** (istehsalçının digər alıcılarla işləməsinə mane olan qeyri-rəsmi şərtlər).

Bu praktikaların ortaq cəhəti, təchizatçıya iqtisadi baxımdan əlavə yük gətirməsi və riskləri ədalətsiz bölüşdürməsidir. Nəticədə fermerin maliyyə sabitliyi pozulur, istehsal planlaşdırması çətinləşir və bazar iştirakçılarının sayında azalma müşahidə olunur.

HTP-lərin təsərrüfat subyektlərinə təsiri çoxşaxəlidir. Fermerlər üçün bu hallar əsasən likvidlik problemləri yaradır, gəlir sabitliyini azaldır və istehsal risklərini artırır. Bu da öz növbəsində yeni

investisiyalara marağı zəiflədir və kənd təsərrüfatı sahəsində innovativ texnologiyaların tətbiqini ləngidir. Emalçılar və topdansatışçılar üçün isə bazar etibarlılığının azalması və uzunmüddətli tərəfdaşlıq münasibətlərinin zəifləməsi ilə nəticələnir (Swinnen, 2017).

Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, bu problemin həlli üçün təkcə bazar mexanizmlərinə güvənmək kifayət etmir. Xüsusilə Avropa Birliyində 2019/633 saylı Direktivin qəbulundan sonra HTP-lərin açıq siyahısının müəyyənləşdirilməsi, qadağalar və sanksiya mexanizmləri tətbiq olunması ilə vəziyyətin əhəmiyyətli dərəcədə yaxşılaşdığı qeyd olunur. Bu isə göstərir ki, hüquqi tənzimləmə fermerlərin sövdələşmə mövqeyini möhkəmləndirməkdə və təchizat zəncirinin dayanıqlılığını artırmaqda mühüm vasitədir.

## HTP-lərin tənzimlənməsi təcrübələri

Kənd təsərrüfatı və ərzaq məhsulları təchizat zəncirində haqsız ticarət praktikaları (HTP) problemi yalnız bir neçə ölkəyə xas deyil, bu, qlobal bir çağırışdır. Bu mənada haqsız ticarət praktikalarının tənzimlənməsi sahəsində müxtəlif ölkələrin yanaşmaları bir-birindən fərqlənsə də, ümumi məqsəd fermerlərin sövdələşmə mövqeyini möhkəmləndirmək və təchizat zəncirində ədalətli münasibətləri təmin etməkdir.

Avropa İttifaqında (Aİ) aparılan tədqiqatlar göstərir ki, fermerlərin 20-30%-i müxtəlif formalı haqsız rəftara məruz qalır və bu hallar onların gəlirliliyinə, likvidliyinə və investisiya davranışına mənfi təsir göstərir (European Commission, 2018). Problemin kəskinliyi səbəbilə Aİ səviyyəsində hüquqi müdaxiləyə zərurət yaranmış və nəticədə 17 aprel 2019-cu ildə Direktiv (EU) 2019/633 qəbul edilmişdir.

Bu Direktiv kənd təsərrüfatı və ərzaq məhsullarının təchizat zəncirində alıcı ilə təchizatçı arasında güc balanssızlığını azaltmaq və kiçik fermerləri və KOB-ları (kiçik və orta biznesləri) qorumaq məqsədi daşıyır. O, üzv dövlətlərə minimum standartlar təqdim edir və milli səviyyədə daha sərt qaydaların tətbiqini istisna etmir.

Direktivdə HTP-lər iki qrupa bölünür: "Qara Siyahı" və "Boz Siyahı" praktikalar.

Qara Siyahı (şərtsiz qadağan edilir):

- Tez xarab olan məhsullar üçün 30 gündən, digər məhsullar üçün 60 gündən gec ödəniş;
- Sifarişin son anda ləğvi – xüsusilə tez xarab olan məhsullar üçün;
- Müqavilənin birtərəfli dəyişdirilməsi (çatdırılma vaxtı, qiymət, həcmi və s.);
- Təchizatçıdan onun məhsulunun satışından fərqli məqsədlər üçün ödəniş tələb edilməsi (məsələn, alıcının personalının təlimi üçün).

Boz Siyahı (yalnız əvvəlcədən yazılı razılıq olduqda icazəlidir):

- Satılmamış məhsulların geri qaytarılması;
- Reklam, marketinq, saxlanma və təqdimat xidmətlərinə görə təchizatçıdan ödəniş tələb edilməsi;
- Endirim kampaniyalarının xərclərinin təchizatçı tərəfindən ödənilməsi.

Əgər bu praktikalar əvvəlcədən və yazılı şəkildə razılaşdırılmayıbsa, onlar qanunsuz hesab olunur və alıcı məsuliyyət daşıyır.

Direktivin mühüm elementlərindən biri icra mexanizmidir. Hər üzv dövlət aşağıdakı səlahiyyətlərə malik bir orqan təyin etməlidir:

- Şikayətləri qəbul etmək;
- Təftiş və araşdırma aparmaq;
- Cərimə və sanksiyalar tətbiq etmək.

Bundan əlavə, şikayətçilər anonim qala bilərlər ki, bu da xüsusilə "delistinq" və qisas qorxusu yaşayan fermerlər üçün əhəmiyyətlidir.

## Direktivin təsiri və qiymətləndirilməsi

Avropa Komissiyasının ilkin qiymətləndirməsinə əsasən, Direktivin tətbiqi nəticəsində:

- Kiçik fermerlər daha sabit ödəniş axınına nail olub;
- Müqavilə münasibətlərində şəffaflıq artıb;
- Təchizatçılar alıcılardan daha az risk və əlavə öhdəliklərlə (European Commission, 2021).

Eyni zamanda, üzv dövlətlərin bəziləri – məsələn, Fransa, İspaniya və İtaliya – Direktivin çərçivəsindən kənara çıxaraq daha geniş HTP-ləri tənzimləyən milli qanunlar qəbul etmişlər.
Beləliklə, Direktiv (EU) 2019/633, HTP-lərlə hüquqi mübarizədə strukturlaşmış və balanslı yanaşma təklif edir. O, həm qəti qadağalar, həm də razılaşdırılmalı davranış formaları ilə təchizat zəncirində minimal ədalət standartları formalaşdırır. Azərbaycanda oxşar bir çərçivənin formalaşdırılması üçün bu Direktiv əhəmiyyətli istinad nöqtəsidir.
Avropa İttifaqı 2025-ci ildə Şura səviyyəsində aqrar təchizat zəncirində transsərhəd haqsız ticarət praktikalarına qarşı yeni icra qaydaları üçün mandat qəbul etmişdir. Bu qaydalar üzv dövlətlərə qarşılıqlı yardım, məlumat mübadiləsi və transsərhəd təqib və sanksiya tədbirlərinin koordinasiyası mexanizmlərini gücləndirir (Council of the EU, 2025).
Haqsız ticarət praktikaları (HTP) yalnız Avropa İttifaqında deyil, digər ölkələrdə də kənd təsərrüfatı sektorunun inkişafına əngəl törədən əsas problemlərdən biri kimi tanınır. Aşağıda bəzi seçilmiş ölkələrin bu sahədəki tənzimləmə təcrübəsi və onların Azərbaycan üçün potensial dərsləri təqdim olunur.
Türkiyədə HTP-lərlə mübarizə iki əsas qanunvericilik aktı vasitəsilə həyata keçirilir:

- **Türkiyə Rəqabət Qanunu** (No. 4054): Bazar gücündən sui-istifadə və haqsız kommersiya davranışları ilə bağlı ümumi müddəalar təqdim edir (Türkiye Cumhuriyeti, 1994).
- **Tarım Ürünleri Lisanslı Depoculuk Kanunu (5300 nömrəli)**: Kənd təsərrüfatı məhsullarının alış-satışında şəffaflıq, ödəniş müddətləri və müqavilə standartları ilə bağlı konkret qaydalar müəyyənləşdirir (Türkiye Cumhuriyeti, 2005).

Türkiyədə müvafiq nəzarət qurumunun adı "Rekabet Kurumu" adlanır. Bu qurum HTP-lərlə bağlı şikayətləri araşdıra və sanksiyalar tətbiq edə bilən müstəqil orqandır.
Türkiyədə xüsusilə kooperativlərin və birliklərin hüquqlarını qorumaq və danışıqlar gücünü artırmaq məqsədilə müxtəlif təşviq mexanizmləri tətbiq olunur (Karahan, 2017).
Aİ üzvü olduqdan sonra Şərqi Avropa ölkələri də Direktiv (EU) 2019/633-ü tətbiq etmiş və bəzi hallarda daha sərt qaydalar müəyyənləşdirmişdir. Məsələn, P**olşanın** "Ustawa o przeciwdziałaniu nieuczciwym praktykom handlowym" (2021) – haqsız ticarət praktikaları ilə bağlı milli qanununda cərimə mexanizmləri Direktivlə müqayisədə daha genişdir (Urbanska, Starzynska, Wladzinska, 2022).
Digər ölkələrin təcrübələrindən çıxarıla biləcək əsas dərslər aşağıdakılardır:

- **Yalnız qanun qəbul etmək kifayət deyil;** onun icrası üçün müstəqil orqanlar və icra prosedurları tələb olunur.
- **Şikayət mexanizmləri sadə, sürətli və fermerlər üçün əlçatan olmalıdır.**
- **Maarifləndirmə və hüquqi təlimlər** fermerlərin haqlarını bilməsi və müdafiə etməsi üçün əsas şərtdir.
- **Kooperativlər və fermer birlikləri** vasitəsilə kollektiv müqavimət gücü artırıla bilər.

**Azərbaycanda haqsız ticarət praktikalarının tənzimlənməsinin təkmilləşdirilməsi**
Dünyadakı qabaqcıl praktika nəzərə alınaraq Azərbaycanın kənd təsərrüfatı sektorunda son illərdə strukturlaşma və modernləşmə istiqamətində mühüm addımlar atılsa da, hələ də kənd təsərrüfatı dəyər zənciri boyunca güc balanssızlığına əsaslanan haqsız ticarət praktikaları müşahidə olunmaqdadır.

Son illərdə Azərbaycanda pərakəndə ticarət sektorunda istehlakçı davranışlarının ənənəvi satış kanallarından modern ticarət formatına doğru transformasiyası müşahidə olunur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Azərbaycanda Ticarət 2025" statistik məcmuəsində verilən məlumata görə, 2024-cü ildə pərakəndə ticarət dövriyyəsinin fiziki həcm indeksi hüquqi şəxslər üzrə 108,6 faiz, fərdi sahibkarlar üzrə isə 102,3 faiz olmuşdur. Eyni nəşrdə pərakəndə ticarət dövriyyəsində hüquqi şəxslərin payının 2024-cü ildə 35,9 faizə çatdığı, fərdi sahibkarlar və məhsul bazarlarının payının isə 64,1 faiz təşkil etdiyi göstərilir. Bu dinamika daha təşkilatlanmış ticarət formatlarının bazarda artan rolunu göstərir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [DSK], 2025).

Müəllif tərəfindən ərzaq dağıtımı (FMCG) sektorunda fəaliyyət göstərən 6 şirkət nümayəndəsi ilə aparılmış ekspert müsahibələrinin sintezinə əsasən, supermarket şəbəkələrinin istehlak malları bazarındakı ümumi payı təxminən 35 faiz, dörd ən iri şəbəkənin birgə payı isə (CR4) təxminən 25 faiz səviyyəsində qiymətləndirilir. Bu göstəricilər pərakəndə satış sektorunda alıcı gücünün müəyyən dərəcədə konsentrasiyalaşdığını göstərir. Modern ticarət formatının genişlənməsi fonunda bu konsentrasiyanın gələcəkdə daha da artması ehtimalı mövcuddur.

Bu tendensiya sektor iştirakçılarının qiymətləndirmələri ilə yanaşı media və sənaye məlumatlarında da öz əksini tapır. Məsələn, 2025-ci il üzrə məlumatlarda supermarket formatında satışların artım tempinin ənənəvi satış kanallarını üstələdiyi qeyd olunur (AZƏRTAC, 2026).

Belə bir struktur təchizat zəncirində sövdələşmə gücünün iri alıcıların xeyrinə dəyişməsinə şərait yaradır (Porter, 1980). Nəticədə ödəniş müddətlərinin uzadılması, əlavə xərclərin təchizatçıya ötürülməsi və müqavilə şərtlərinin faktiki olaraq birtərəfli müəyyənləşdirilməsi kimi HTP riskləri güclənir.

**Azərbaycanın aqrar sektorunda ən çox rast gəlinən haqsız ticarət praktikaları aşağıdakılardır:**

- Məhsulun dəyərinin ödənilməsi üçün alıcı tərəfindən istehsalçıya əlverişsiz, uzunmüddətli ödəmə şərtlərinin tətbiq edilməsi;
- Qiymətlərin birtərəfli şəkildə müəyyən edilməsi və satış dövründə alıcı tərəfindən istənilən vaxt dəyişdirilməsi;
- Alıcının yazılı müqavilə bağlamaqdan imtina etməsi, bu isə istehsalçının hüquqi müdafiəsini çətinləşdirir;
- Reklam xərclərinin istehsalçının üzərinə qoyulması;
- Konkret tranzaksiya ilə əlaqəli olmayan əlavə ödənişlərin istehsalçıya tətbiq edilməsi. (Xəlilov H., Hacıyeva S. və Qasımova N, 2023)

Azərbaycanda kənd təsərrüfatı dəyər zəncirində haqsız ticarətə şərait yaradan əsas meyllərdən biri pərakəndə satış sektorunda konsentrasiyanın artmasıdır. Modern ticarət formatlarının genişlənməsi, təşkilatlanmış satış şəbəkələrinin bazar payının yüksəlməsi və istehsalçıların satış kanallarının məhdudluğu iri alıcıların sövdələşmə mövqeyini gücləndirir. Müəllifin ekspert müsahibələri və sektor müşahidələri göstərir ki, bu şəraitdə ödəniş gecikmələri, əlavə kommersiya şərtlərinin tətbiqi və yazılı müqavilə intizamının zəifliyi daha qabarıq görünür.

Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbərinin sözlərinə görə, ticarət şəbəkələri ilə bağlanmış müqavilələrdə məhsulun ödənişi 30 günə nəzərdə tutulsa da, istehsalçılar bəzən 90 gün və ya daha çox müddətə ödəmələri gözləməli olurlar və bu gecikmələr müəssisələrin maliyyə vəziyyətinə mənfi təsir göstərir (Həsənli, 2022).

Bu haqsız praktikalar təkcə fərdi fermerin gəlirinə deyil, ümumilikdə kənd yerlərində iqtisadi fəaliyyətin sabitliyinə və ərzaq təhlükəsizliyinə təsir edir:

- Fermerlər riskin artması səbəbindən istehsal miqyasını azaldır;
- Gənclər kənd təsərrüfatı ilə məşğul olmaqdan çəkinir;
- İstehlakçılar üçün keyfiyyətli və davamlı məhsul təklifi azalır.

Azərbaycanda alıcı-təchizatçı münasibətləri və haqsız rəqabətlə bağlı ümumi hüquqi baza formalaşmışdır. Lakin kənd təsərrüfatı və ərzaq məhsullarının təchizat zəncirində haqsız ticarət praktikaları ilə birbaşa mübarizə aparan xüsusi normativ çərçivə uzun müddət mövcud olmamışdır. Bu boşluq bazar münasibətlərində zəif oyunçuların, xüsusilə fermerlərin hüquqi cəhətdən qorunmasında ciddi çatışmazlıqlar yaradıb. Sözügedən boşluğun aradan qaldırılması məqsədilə Rəqabət qanunvericiliyində müvafiq müddəaların təsbit olunmasına dair təkliflər nəzərə alınmalıdır. 2023-cü ilin dekabrında rəqabət qanunvericiliyi daha sistemli yanaşma ilə təkmilləşdirilərək "Rəqabət Məcəlləsi" qəbul olunmuşdur. "Rəqabət Məcəlləsi"nin qəbul edilməsi ilə bu sahədki əvvəlki qanunlar, yəni "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında" və "Təbii inhisarlar haqqında" qanunlar qüvvədən düşmüşdür.

"Rəqabət Məcəlləsi" bazar münasibətlərində ədalətli rəqabətin təmin olunmasını, dominant mövqedən sui-istifadə hallarının qarşısının alınmasını və istehlakçıların müdafiəsini nəzərdə tutur. Məcəllə haqsız rəqabət anlayışını müəyyən etmiş və onun müxtəlif formalarını qadağan etmişdir. Məcəllənin 19-25-ci maddələrində müştərilərin çaşdırılması, nüfuzdan salma, sahibkarlıq fəaliyyətinin təqlidi, kommersiya sirrinin pozulması və haqsız rəqabətə səbəb olan digər hərəkətlər kimi hallar əhatə olunur (Rəqabət Məcəlləsi, 2023).

Bununla belə, bu müddəalar kənd təsərrüfatı sahəsində HTP-lərin spesifik formalarını – məsələn, gecikmiş ödənişlər, sifarişin birtərəfli ləğvi, reklam xərclərinin fermerə yüklənməsi və s. – açıq şəkildə əhatə etmir.

Haqsız Ticarət praktikası ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Ticarət Mərkəzində araşdırmalar aparılmış və həmin kontekstdə Məcəllədə kənd təsərrüfatı və ərzaq məhsullarının tədarük zəncirində haqsız ticarət praktikasının yolverilməzliyinə dair müddəaların əks etdirilməsi məqsədəuyğun hesab edilir. Bunlara kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı sahəsində fəaliyyət göstərən bazar subyektlərinin yol verilməsi qadağan olunan hərəkətlərinə, habelə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı sahəsində fəaliyyət göstərən bazar subyektlərinin əvvəlcədən aydın və birmənalı formada razılaşdırılmadığı hallarda yol verilməyən hərəkətlərinə dair müddəalar aid edilə bilər.

Bundan əlavə, Rəqabət Məcəlləsində Haqsız Ticarət praktikasına qarşı sanksiyaların da müəyyən edilməsi məqsədəuyğun hesab edilir. Bununla bağlı müvafiq müddəalar Məcəllənin 77-ci maddəsində nəzərdə tutula bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatının kənd təsərrüfatı sektorunda haqsız ticarət praktikalarının (HTP) azaldılması üçün təkcə normativ aktların qəbul edilməsi kifayət deyil. Qanunvericilik təşəbbüsləri yalnız praktik, icra oluna bilən mexanizmlərlə və bazar aktorlarının fəal iştirakı ilə effektiv ola bilər.

## NƏTİCƏ

Kənd təsərrüfatı və ərzaq məhsullarının təchizat zəncirində haqsız ticarət praktikaları (HTP) Azərbaycanda da, digər ölkələrdə olduğu kimi, kiçik və orta fermerlərin iqtisadi sabitliyi, istehsal motivasiyası və ərzaq təhlükəsizliyi üçün risk amili olaraq qalmaqdadır. Bu praktikalara əsas səbəb alıcı və təchizatçılar arasında güc balanssızlığı, müqavilə münasibətlərinin qeyri-formal xarakter daşıması və icra mexanizmlərinin zəifliyidir.

HTP-lərlə effektiv mübarizə Azərbaycan üçün yalnız kənd təsərrüfatı sektorunda ədalətli oyun qaydalarının bərpası deyil, həm də fermerlərin rifahı, ərzaq təhlükəsizliyi və regionlarda sosial stabillik baxımından strateji əhəmiyyət daşıyır. Bu səbəbdən, hüquqi islahatlarla yanaşı institusional və davranış yönümlü siyasətlər də eyni vaxtda tətbiq edilməlidir.

Aparılan təhlil göstərir ki, Azərbaycanda son illərdə "Rəqabət Məcəlləsi"nin qəbulu mühüm addımdır, lakin kənd təsərrüfatı sektorunun xüsusiyyətlərini nəzərə alan ayrıca HTP çərçivəsi və

effektiv icra mexanizmləri formalaşdırılmalıdır. İstehsalçıların əsas narazılıqları – gecikmiş ödənişlər, birtərəfli müqavilə dəyişiklikləri və əlavə xərclərin yüklənməsi – tənzimlənməli və onların qarşısı hüquqi və institusional vasitələrlə alınmalıdır. Bununla bağlı aşağıdakı istiqamətlər üzrə tədbirlər həyata keçirilə bilər.

***Rəqabət qanunvericiliyində dəyişikliklər:***

- Rəqabət Məcəlləsində bilavasitə HTP-lərin tənzimlənməsinə dair müddəaların daxil edilməsi;
- **Müvafiq orqanlar tərəfindən HTP-lərə nəzarətin gücləndirilməsi;**
- Fermerlərin **şikayətlərini anonim şəkildə təqdim edə biləcəyi onlayn platforma** qurulması;
- İcra orqanı tərəfindən **monitorinq hesabatları və illik təhlillər** yayımlanması, ictimaiyyətlə məlumat paylaşımının gücləndirilməsi.

***Fermerlərin və bazar aktorlarının fəallaşdırılması:***

- **Fermerlər arasında müqaviləli istehsal mədəniyyətinin təşviq edilməsi,** Yazılı müqavilə mexanizmləri sadələşdirilməsi və elektron formatda əlçatan olmasinin təmin edilməsi;
- **Fermer birlikləri və kooperativlərin gücləndirilməsi,** bu məqsədlə hüquqi və maliyyə dəstəyinin təklif olunması.
- **Maarifləndirmə və hüquqi təlimlər** regionlarda fermerlər üçün təşkil edilməsi, real nümunələrlə HTP-lərin necə tanınacağı və qarşısının necə alınacağı izah edilməsi;
- Bazar aktorları ilə **ictimai dialoq platformaları** yaradılması və etik ticarət prinsiplərinin (fair trade) təşviq olunması.

***Rəqəmsallaşma və şəffaflığın yüksəldilməsi:***

- **Kənd təsərrüfatı tədarük zəncirində müqavilə münasibətlərinin elektron bazası** yaradılması. Bu, istər monitorinq, istərsə də hüquqi mübahisələr üçün effektiv əsas verər.

Aparılan nəzəri və empirik təhlil göstərir ki, Azərbaycanda HTP-lərin yayılma riski yalnız hüquqi boşluqlarla deyil, həm də təchizat zəncirində alıcı gücünün artan konsentrasiyası ilə bağlıdır. Bu səbəbdən HTP-lərlə mübarizə yalnız qadağanedici normanın qəbul edilməsi ilə məhdudlaşmamalı, həm də yazılı müqavilə tələbi, anonim şikayət mexanizmi, sektor üzrə monitorinq, proporsional sanksiya sistemi və illik icra hesabatı kimi konkret alətlərlə təmin edilməlidir. Belə institusional dizayn fermerlərin müdafiəsini gücləndirməklə yanaşı, təchizat zəncirində proqnozlaşdırıla bilən və daha ədalətli kommersiya münasibətlərinin formalaşmasına xidmət edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası. (2023). *Rəqabət Məcəlləsi*. https://e-qanun.az/framework/56187
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). *Azərbaycanda ticarət: Statistik məcmuə*. Bakı.
3. AZƏRTAC. (2026, 10 fevral). *"Carlsberg Azerbaijan" 2025-ci ilin güclü nəticələrini elan edir*. https://azertag.az/xeber/3145621
4. Council of the European Union. (2025). *Combatting unfair trading practices in the agrifood supply chain: Council agrees position on new rules for cross-border enforcement*. https://www.consilium.europa.eu/en/press/press-releases/2025/04/07/combatting-unfair-trading-practices-in-the-agrifood-supply-chain-council-agrees-position-on-new-rules-for-cross-border-enforcement/
5. Eisenhardt, K. M. (1989). Agency theory: An assessment and review. *Academy of Management Review*, 14(1), 57–74.
6. European Commission. (2018). *Impact assessment accompanying the proposal for a directive on unfair trading practices in the agricultural and food supply chain* (SWD(2018) 92 final).

7. European Commission. (2019). *Directive (EU) 2019/633 on unfair trading practices in business-to-business relationships in the agricultural and food supply chain*. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX:32019L0633

8. European Commission. (2021). *Evaluation roadmap: Implementation of the unfair trading practices directive*. https://ec.europa.eu/info/law/better-regulation/have-your-say/initiatives/12817-Evaluation-of-the-Directive-on-unfair-trading-practices-in-the-agricultural-and-food-supply-chain_en

9. Food and Agriculture Organization. (2024). *Unfair trading practices in business-to-business relationships in agricultural supply chains: A growing concern*. FAO. https://openknowledge.fao.org/server/api/core/bitstreams/f9f4e325-a715-4ba6-8589-db58b7d42bc9/content

10. Həsənli, M. (2022). *Xaricdən quş əti idxalı tam dayandırılmalıdır* [Müsahibə]. Demokrat.az. https://demokrat.az/az/news/119299/murvet-hesenli-xaricden-qus-eti-idxali-tamam-dayandirilmalidir-musahibe

11. Karahan, A. (2017). *Kırsal kalkınma ve örgütlenme*. https://millidusunce.com/misak/ulkemizde-kirsal-kalkinma-ve-orgutlenme/

12. Porter, M. E. (1980). *Competitive Strategy: Techniques for Analyzing Industries and Competitors*. New York: Free Press.

13. Swinnen, J. F. M. (2017). *The political economy of agricultural and food policies*. Palgrave Macmillan.

14. Türkiye Cumhuriyeti. (1994). *Law No. 4054 on the protection of competition*. https://www.rekabet.gov.tr/Dosya/4054-sayili-kanun.pdf

15. Türkiye Cumhuriyeti. (2005). *Tarım ürünleri lisanslı depoculuk kanunu (Law No. 5300)*. https://mevzuat.gov.tr/mevzuat?MevzuatNo=5300&MevzuatTur=1&MevzuatTertip=5

16. Urbanska, M., Starzynska, K., & Wladzinska, A. (2022). *Unfair trading practices in the agricultural and food supply chain in Poland*. CMS Expert Guide. https://cms.law/en/int/expert-guides/unfair-trading-practices-in-the-agri-food-supply-chain-in-cee/poland

17. Williamson, O. E. (1985). *The Economic Institutions of Capitalism: Firms, Markets, Relational Contracting*. New York: Free Press.

18. Xəlilov, H., Hacıyeva, S., & Qasımova, N. (2023). Modern dəyər zəncirinə keçid şəraitində kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitinin xüsusiyyətləri. *Kənd təsərrüfatı iqtisadiyyatı*, 1(43), 9–15.